Bələdiyyə seçkiləri bölgələrdə mütəşəkkil keçdi

Sumqayıt

Bələdiyyə seçkilərinin azad, demokratik və şəffaf keçirilməsi məqsədilə Sumqayıt şəhərində hazırlıq işləri yüksək səviyyədə aparılmışdır. Bütün məntəqələrdə müşahidəçilərin səsvermənin gedişini sərbəst izləmələri üçün lazımi şərait yaradılmışdır. Gün ərzində bir çox məntəqədə seçkiləri veb-kameralar vasitəsilə onlayn izləmək imkanı da olmuşdur.

Sumqayıt seçicilərinin ümumi sayı 163 min 429 nəfərdir. Onlar 41 saylı Sumqayıt birinci, 42 saylı Sumqayıt ikinci, 43 saylı Sumqayıt üçüncü və 44 saylı Sumqayıt-Xızı seçki dairələri üzrə bələdiyyə üzvlüyünə qeydə alınmış namizədlərdən istədikləri şəxsləri dəstəkləmək üçün sübh tezdən 134 məntəqəyə gələrək səsverməyə qatılıblar. Gənclər şəhərindəki dairələr üzrə ümumilikdə 1360 nəfər gənc seçici ilk dəfə bu hüququndan istifadə edirdi.

Şəhərdəki 41 saylı dairənin 28 məntəqəsi şəhərin bir hissəsini, 5-i isə Corat qəsəbəsini əhatə edir. Dairə seçki komissiyasının sədri Vaqif Məmmədov məlumat verdi ki, ərazi üzrə 43143 seçici qeydə alınıb, onların yarıya qədəri günorta saatlarınadək səs verib. Seçicilərin ümumi sayının 577 nəfəri 80-100 yaşı olan sumqayıtlılardır. Bu seçkilərdə şəhər bələdiyyəsinə 19 yer üçün 75 namizəd var idi. Corat bələdiyyəsində üzvlük uğrunda isə 27 namizəd mübarizə aparıb. Onlardan 13 nəfəri seçilməlidir. Məntəqələrin üçdə-birində veb-kamera quraşdırılmışdır. 19, 22 və 23 saylı məntəqələrdə səsvermənin normal keçdiyinin şahidi olduq. Dairə komissiyasının sədri gün ərzində səsvermənin seçici fəallığı ilə müşayiət olunduğunu bildirdi.

Sumqayıtdakı 42 saylı dairə seçki komissiyasının sədri Ruslan Hacıyevin bildirdiyinə görə, ərazidə yaşayan 42890 nəfərə bildiriş göndərilib. İlk dəfə səs verən seçicilərin sayı 385 nəfərdir. Ən qocaman seçici isə 105 yaşlı Pərişan Hacıyevadır. O, ərizəsinə əsasən bülletenini evinə gətirilmiş qutuya atıb. Ümumilikdə, bələdiyyə seçkiləri dairə üzrə 38 məntəqədə reallaşdırılıb. Bu DSK üzrə müşahidəçilər əsasən qeyri-hökumət təşkilatlarının, YAP, BAXCP və digər partiyaların təmsilçiləridir. Öz təşəbbüsü ilə qeydə alınan müşahidəçilər də vardır. Günortaya qədər dairə üzrə seçicilərin, demək olar ki, yarıya qədəri artıq məntəqəyə gələrək öz iradəsini ifadə etmişdir. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov 42 saylı Sumqayıt ikinci Seçki Dairəsininin 1 saylı orta məktəbdə yerləşən 12 saylı seçki məntəqəsində səs verib.

43 saylı üçüncü Sumqayıt dairə seçki komissiyasının sədri Həsən Məmmədov dedi ki, seçkilər hər bir dövrdə xalqın gələcək inkişaf yolunu müəyyənləşdirən mühüm siyasi prosesdir. Bizim seçki dairəsində 34 daimi seçki məntəqəsi fəaliyyət göstərir. İlk dəfə səs verənlər 225 nəfər, yaşı 80-100 arası olanlar isə 699 nəfərdir. Gənclərin çoxu ali məktəb tələbəsidir. Onlar xüsusi fəallıqları ilə diqqət çəkirlər. Yaşlı nəslin nümayəndələri də səsvermədə həvəslə, inamla və ümidlə iştirak edirlər. Kimsə yaradılan şəraitdən və ya hər hansı bir qanun pozuntusunun olmasından narazılığını bildirməyib.

Şəhərin mərkəzində yerləşən 44 saylı Sumqayıt-Xızı seçki dairəsinin məntəqələrində səhər saat 8-dən qələbəlik olub. Komissiyanın katibi Təravət Rəsulovanın bildirdiyinə görə,

dairənin əhatə etdiyi ərazidə 14 bələdiyyəyə seçkilər keçirilib. Bunlar Sumqayıt, Hacı Zeynalabdin və Xızı bələdiyyələridir. Dairənin Sumqayıtda 29, Xızıda isə 14 seçki məntəqəsi yaradılıb. Müşahidəçilərin sayı 441 nəfər idi. Məntəqələrin 9-unda veb-kamera işləyirdi. Gedişatı müşahidə etdiyimiz 1 saylı məntəqədə seçici fəallığının şahidi olduq. Saat 10-a qədər dairə üzrə artıq 2206 nəfər seçici səs vermişdi.

Axşam verilən yekun məlumata görə, 41 saylı Sumqayıt birinci seçki dairəsi üzrə seçicilərin ümumi sayının 29,55 faizi, 42 saylı Sumqayıt ikinci seçki dairəsi üzrə 29,65 faizi, 43 saylı Sumqayıt üçüncü seçki daairəsi üzrə 29,30 faizi, 44 saylı Sumqayıt-Xızı seçki dairəsi üzrə isə 33,57 faizi səsvermədə iştirak etmişdir.

Lənkəran

Seçkilərin əsas həlledici mərhələlərindən sayılan səsvermə prosesləri Lənkəranda qanunvericilikdə müəyyən edilmiş qaydada aparılmışdır. Bələdiyyə seçkilərinə hazırlığın ilk günündən burada bütün zəruri tədbirlər görülmüş və seçicilərin məntəqələrə gələrək sərbəst şəkildə səs verələri üçün lazımi şərait yaradılmışdır. Texniki-təşkilatı tədbirlər lazımınca həyata keçirilmişdir.

Bölgədəki seçki dairələri xüsusilə geniş əraziləri əhatə edir. Dörd dairə üzrə 148038 nəfər səsvermə hüququ olan vətəndaş qeydə alınıb. Cəmi 153 məntəqə fəaliyyət göstərir.Heç bir məntəqədə komissiyanın işinə qarışmaq, səs verənlərə hər hansı təsir göstərmək kimi hallar olmamışdır. Rəyi soruşulan seçicilərin hamısı bunu təsdiqləmişdir. Bir sözlə, Lənkəranda seçki günü əsl demokratik ab-hava hökm sürmüşdür.

Səsvermənin normal gedişatını təmin etmək üçün bütün məntəqələrdə otaqlar elə təşkil edilmişdi ki, seçicilərin barmaqlarının yoxlanılması, seçici siyahısında adının axtarılması, seçki bülletenlərinin verilməsi, barmağın mürəkkəblənməsi, səsvermə kabinələri və qutuları seçki komissiyasının üzvləri və müşahidəçilər tərəfindən sərbəst görünsün.

Şəhərdəki 73 saylı dairə seçki komissiyasından öyrəndik ki, burada 48 yer uğrunda 99 namizədin mübarizə aparır. Lənkəranda çəkiliş aparan, reportaj hazırlayan jurnalist həmkarlarımız Eldəniz Qurbanov, Əlisəfa Həsənov, Ağaddin Babayev və İltifat Əhmədov məntəqələrə həm də seçici kimi gedərək, səsverməni şəxsən müşahidə ediblər. Söhbətimiz zamanı seçkilərin gedişatı ilə bağlı qənaətlərini bölüşərkən bildiriblər ki, baş çəkdikləri heç bir məntəqədə qanun pozuntusu halına rast gəlməyiblər.

Günün sonunda verilən məlumata görə, Lənkərandakı 73 saylı dairədə səs verənlər seçicilərin ümumi sayının 32,45 faizini, 74 saylı dairədə 37,23 faizini, 75 saylı dairədə 37,81 faizini, 76 saylı dairədə isə 35,02 faizini təşkil etmişdir.

Astara

İyirmi illik bələdiyyə institutu təcrübəsi olan ölkəmizin hər yerində olduğu kimi, Astara rayonunda da növbəti seçkilər layiqincə keçib. Burada hər kəs anlayır ki, yerli idarəetmə xalq hakimiyyətinin mühüm bir formasıdır və onun tərkibinə nə qədər layiqli namizəd seçilsə, bələdiyyənin faydalı iş əmsalı da bir o qədər yüksək olar.

77 saylı Astara dairə seçki komissiyasının katibi Gülhəsən Mirzəyevin bildirdiyinə görə, seçkilərdən bir neçə gün əvvəl rayonda "Mən ilk dəfə səs verirəm" mövzusunda maraqlı maarifləndirmə tədbiri keçirilib ki, gənclərin fəallığı daha da yüksəlsin. Seçki proseduru ilə bağlı gəncləri maraqlandıran suallar cavablandırılıb. Bu kimi tədbirlərin nəticəsidir ki, astaralı gənclər səsvermədə yaxından iştirak ediblər. Ötən Prezident seçkilərindən sonra səsvermə hüququ qazanan rayon gənclərinin sayı 1226 nəfər, bu bələdiyyə seçkisi günündədək 18 yaşı tamam olanların sayı isə 665 nəfərdir. Astara şəhər sakini Qəhrəman Şəfiyev təəssüratlarını belə ifadə etdi:

–Bu gün həyat yoldaşımla birlikdə bələdiyyə seçkilərində Astara şəhəri üzrə qeydə alınmış 34 namizəddən layiq bildiyimiz insanlara səs verdik. Məntəqədə səsvermənin yüksək səviyyədə keçməsi üçün hər cür şərait yaradılıb.

Astara seçiciləri arasında yaşı 100-dən yuxarı olan vətəndaşlar da var. Onlar 107 yaşlı Mələk Tairova və 101 yaşlı Sərəbanu Yaqubovadır. Hər ikisinin səsvermədə iştirakını təmin etməkdən ötrü verdikləri ərizələrə əsasən, yaşadıqları ünvanlara səsvermə qutusu aparılıb. Aldığımız məlumata görə, gün ərzində nə seçicilər, nə də müşahidəçilər tərəfindən seçkilərlə bağlı heç bir narazılıq olmayıb.

Səsvermə sona yetəndən sonra verilən məlumata görə, Astarada seçicilərin ümumi sayının 33,03 faizi səsvermədə iştirak etmişdir.

Masallı

Bələdiyyə seçkiləri Masallı rayonunda da yüksək təşkilati-texniki səviyyədə başlanmışdır. Rayonda fəaliyyət göstərən 70 saylı şəhər və 71 saylı kənd dairələrinin məntəqələrində seçici fəallığı müşahidə olunmuşdur. Bələdiyyə seçkilərinin günün tələblərinə uyğun qaydada keçməsi təmin edilmişdir.

70 saylı şəhər seçki dairəsi üzrə 11 bələdiyyəyə 117 nəfər üzv seçilməlidir. Qeydə alınan namizədlərin sayı isə 273 nəfərdir. Onların 148 nəfəri namizədliyini özü irəli sürmüş, qalanları YAP, AVP, BQP və Ümid partiyaları tərəfindən namizəd verilmişdir. Dairənin 43 məntəqəsi üzrə 39 min 953 nəfər seçici var. Onlardan 466 nəfər səsvermədə ilk dəfə iştirak edənlərdir. Ən yaşlı seçici 100 yaşlı Güllü İbişovadır. Seçkilərin gedişini izləmək üçün 454 müşahidəçi qeydə alınıb.

DSK-nın Masallı şəhərindəki 5 saylı seçki məntəqəsində 1282 nəfər seçici səs verməli idi. Seçkinin şəffaf keçirilməsi məqsədilə burada veb-kamera quraşdırılmışdı.Ən yaşlı seçicilər 95 yaşlı Fatı Əliyeva və 94 yaşlı Qulamhüseyn Hüseynov idi. Seçicilər bildiriblər ki, səsvermə qanunauyğun şəkildə aparılır.

71 saylı Masallı kənd dairə seçki komissiyası isə rayonun Bədəlan kəndində yerləşir. Burada 42 məntəqə üzrə 35233 seçicidən 636 nəfəri ilk dəfə səs verənlərdir. Ən yaşlı seçici Qızılağac kəndinin sakini, 101 yaşlı Ağanənə Abbasovadır. 80-100 yaş arasında olan seçicilərin sayı isə 862 nəfərdir. Bu dairə üzrə 12 bələdiyyəyə 124 nəfər üzv seçilməlidir. Mandat almaq üçün namizədliyini irəli sürənlərin sayı bundan dəfələrlə çoxdur. Təkcə fərdi qaydada namizədliyini qeydə aldıranlar 163 nəfərdir. Məntəqələrdə 5 veb-kamera quraşdırılıb. Səsverməni 457 nəfər müşahidəçi izləyib.

Dairənin 11 və 12 saylı məntəqələrində səsvermə seçicilərin fəallığı şəraitində davam edirdi. Öyrəndik ki, 11 saylı Bədəlan kənd seçki məntəqəsi üzrə seçicilərin sayı 972 nəfər, 12 saylı Aşırlı kənd məntəqəsi üzrə 832 nəfərdir. Nisbətən yaşlı olan 32 nəfər seçici səhhəti ilə bağlı ərizə ilə müraciət edib. Məntəqələrə gələ bilməyənlərin səsvermədə iştirakını təmin etmək üçün bir komissiya üzvü ilə bir müşahidəçi səsvermə qutusunu onların yaşadıqları ünvana aparıblar.

Günün sonunda öyrəndik ki, 70 saylı Masallı şəhər seçki dairəsində seçicilərin 34,25 faizi, 71 saylı Masallı kənd seçki dairəsində isə 34,57 faizi səs vermişdir.

Lerik

Dağlar diyarı Lerikdə hər kəs yaxşı bilir ki, yerli özünüidarəetmə institutu hüquqi dövlət quruculuğu sahəsində xüsusi yer tutur. Buna görə də rayonda növbəti bələdiyyə seçkiləri yüksək səviyyədə keçib.

Lerikdəki 78 saylı dairə seçki komissiyasının sədri İdris

Şıxəliyevin sözünə görə, 32857 seçiciyə bələdiyyə seçkilərində səs vermək üçün bildiriş göndərilib. Onlardan 395 nəfəri ilk dəfə səs verən seçicilərdir. Hazırlıq işlərində demokratik prinsiplərə tam əməl olunub.

Lerik Rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqovun dediyinə görə, seçki ərəfəsində gənclərin fəallığının artırılması üzrə bir sıra maarifləndirici tədbirlər keçirilib. Gənclərə seçkidə yaxından iştirak etmək və Azərbaycan Konstitusiyası ilə müəyyən olunmuş seçki hüququndan istifadə edərək seçkilərdə fəallıq göstərmək tövsiyə edilib. "Lerik" qəzetinin redaktoru, Əməkdar jurnalist İdris Şükürlü bizimlə söhbətində bildirdi ki, ölkəmizdə seçki mədəniyyətinin dinamik şəkildə yüksəldiyinin şahididir. Elə bu seçkilərdə baş çəkdiyi 1 saylı məntəqədə və bəzi kənd seçki məntəqələrində gördüyü davranış və yanaşmalar onda razılıq doğurub. Səsvermə sona yetəndən sonra verilən məlumata görə, Lerik dairəsi üzrə seçicilərin ümumi sayının 31,32 faizi məntəqələrə gələrək öz iradəsini ifadə etmişdir.

Cəlilabad

Əhalisinin sayına görə cənub bölgəsinin ən böyük rayonlarından olan Cəlilabadda üç dairə seçki komissiyası fəaliyyət göstərir. Bunlar 67 saylı şəhər, 68 saylı kənd və 69 saylı Cəlilabad-Masallı-Biləsuvar dairələridir. Mirsahib Sultanovun sədrlik etdiyi şəhər dairəsinin tərkibində 37 məntəqə yaradılıb. Burada 40710 seçici qeydə alınıb. Onlardan da 336 nəfər seçici ilk dəfə səs verən gənclərdir. Eyni zamanda, bu dairədə bir seçicinin yaşı yüzdən yuxarıdır.

Səhər saatlarından etibarən məntəqələrə axışan seçicilər layiq bildikləri namizədlərə səs veriblər. Heç bir insident və ya xoşagəlməz hal baş verməyib.

Göytəpə şəhərində yerləşən 69 saylı dairə Cəlilabad, Masallı və Biləsuvar rayonlarının müəyyən ərazilərini birləşdirir. Dairə seçki komissiyasının sədri Məhəmməd Abasov bildirib ki, dairənin tərkibində 35 seçki məntəqəsi, ərazidə isə 19060 seçici var. Ünvanların pərakəndə olması hazırlıq proseslərinin mütəşəkkil keçməsinə maneə yaratmayıb. Bütün məntəqələrdə seçkilərə hazırlıq lazımi səviyyədə aparılıb.

Göytəpə şəhər sakini, seçici Elçin Əsgərov səhər tezdən

məntəqəyə gələrək böyük məmnunluqla səsvermədə iştirak etdiyini söyləyib. Səsvermə başa çatdıqdan sonra yekun məlumatları aldıq. Cəlilabaddakı 67 saylı şəhər dairəsində səsvermə 35,41 faiz, 68 saylı kənd dairəsində 35,35 faiz, 69 saylı dairədə isə 33,51 faiz olmaqla seçkilər baş tutmuş hesab edilib.

Yardımlı

Zirvələrində qar olan dağların "üzük qaşı" sayılan Yardımlı rayonunun əhalisi hər zaman dövlətçiliyə böyük sədaqət, qanunlara ciddi riayət ənənələri ilə tanınıb. Bələdiyyə seçkilərinin gedişi bir daha göstərdi ki, dağlar diyarında hər kəs demokratik dəyərlərə ehtiramla yanaşır.

72 saylı Yardımlı-Masallı dairə seçki komissiyasının sədri Qabil Canalıyev deyib: "Yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək, başqa sözlə desək, dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Buna görə də rayonumuzda bələdiyyə seçkilərinin azad, demokratik və şəffaf keçməsi üçün bütün qanuni vasitələrdən istifadə etmişik".

Seçici Ağanur Qəyyumov ailəsinin çoxsaylı üzvləri ilə məntəqəyə gələrək istədiyi namizədə səs verdikdən sonra bildirib ki, demokratik dəyərlər həyatımıza get-gedə daha sıx daxil olur. Baxın, insanlar məntəqələrə daxil olub seçki bülletenini alır və sərbəst şəkildə, heç bir müdaxilə olmadan səsverməyə qatılır. Müşahidəçilər üçün də yaxşı şərait yaradılıb. Kimsə deyə bilməz ki, təzyiqlə üzləşdi, hansısa bir namizədə səs verməyə təhrik edildi. Fəxr edirik ki, belə bir demokratik ölkənin vətəndaşlarıyıq.

Günün sonunda məlum olub ki, 72 saylı Yardımlı-Masallı seçki dairəsi üzrə səsvermədə iştirak edənlər seçicilərin ümumi sayının 30,93 faizi qədər olmuşdur.

Biləsuvar

Muğanın qədim şəhəri Biləsuvar son illərdə xeyli abad və gözəl bir diyara çevrilib. Rayonun sosial-iqtisadi inkişafında yerli bələdiyyənin də müəyyən rolu var. İyirmi illik tarixi ərzində bələdiyyələr doğma yurdun tərəqqisi naminə az iş görməyiblər. Sakinlər istəyirlər ki, yerli özünüidarə qurumu daha da yaxşı fəaliyyət götərsin və tərəqqiyə töhfələrinin sanbalını artırsın. Elə bu istəklə də səsvermə hüququ olan əhalinin böyük əksəriyyəti növbəti bələdiyyə seçkilərində iştirak edib.

Rayonda 66 saylı Biləsuvar dairə seçki komissiyası fəaliyyət göstərir. Komissiya sədrinin verdiyi məlumata görə, rayonda səsvermə hüququ olan vətəndaşların ümumi sayı 49220 nəfərdir. Onlardan da 629 nəfəri ilk dəfə səs verənlərdir.

Dərvişli kənd sakinləri Qədir Abbasov, Kamal İsgəndərov, Səxavət Almazov və digərləri seçkilərdə fəal iştirak edərək dəstəklədikləri namizədlərin seçilmələrini və gələcək fəaliyyətlərində uğurlara imza atmalarını arzulayıblar.

Seçkilər bitdikdən sonra məlumat aldıq ki, biləsuvarlı seçicilərin 35,22 faizi öz səsi ilə yerli özünüidarə sisteminin daha da təkmilləşməsinə, yaşayış məntəqələrinin daha da çiçəklənməsinə dəstəyini ifadə etmişdir.

Neftçala

Mərkəzi Seçki Komissiyasının 18 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş təqvim planında nəzərdə tutulan tədbirlər Neftçala rayonunda da bütünlüklə həyata keçirilib.

Söhbət zamanı 61 saylı Neftçala dairə seçki komissiyasının sədri Şaiq Məmmədov dedi ki, 41 məntəqənin hamısı rabitə, alternativ işıq mənbəyi və digər avadanlıqla, təşviqat materialları ilə təchiz olunub. Seçicilər böyük ruh yüksəkliyi ilə məntəqələrə gedərək istədikləri namizədə səs verirlər. Rayon üzrə 15 bələdiyyəyə 143 nəfər üzv seçilməlidir. Həmin yerlərə ümumilikdə 486 nəfərin namizədliyi qeydə alınıb. Onlar YAP, ASRP, AVP, BQP, MDHP tərəfindən, habelə öz şəxsi təşəbbüsləri ilə irəli sürülmüş namizədlərdir. Hər bir namizədin qeydə alınması, öz təşviqat kampaniyasını aparması üçün lazımi şərait yaradılmışdı.

Yolumuzu Suvarma Sistemləri İdarəsinin inzibati binasında yerləşən 7 saylı seçki məntəqəsindən saldıq. Məntəqə seçki komissiyasının sədri Yalçın Səfərovun sözlərindən məlum oldu ki, məntəqə üzrə 1285 nəfər seçici var. Onlardan 683 nəfəri qadın, 602 nəfəri kişidir. İlk dəfə səs verən seçicilərin sayı 24 nəfərdir. Seçicilərdən 23 nəfəri tələbədir. Onlar da bu gün rayona gələrək səsvermədə iştirak edirlər. Məntəqədə veb-kamera quraşdırılıb. 35 nəfər seçici isə səhhəti ilə bağlı məntəqəyə gələ bilməyəcəyi barədə məlumat vermişdi. İki nəfərin iştirakı ilə daşınan qutunun onların evlərinə aparılması təmin edilib.

Səsvermə sona yetəndən sonra verilən məlumata görə, Neftçalada seçicilərin ümumi sayının 32,58 faizi səsvermədə iştirak etmişdir.

Şamaxı

Şamaxıda seçkilər fəallıqla keçib. 680 namizəd 63 məntəqədə 259 yer uğrunda mübarizə aparıb. 85 saylı Şamaxı dairə seçki komissiyasının sədri Hüseyn Rəcəbov söhbət zamanı qeyd etdi ki, 29 bələdiyyəyə keçirilən seçkilər əvvəlkilərdən xüsusilə fərqlənir. Saat 12 olmasına baxmayaraq, demək olar ki, seçicilərin yarısı məntəqələrə gəlib, öz səslərini veriblər. 11 məntəqədə Veb-kameralar quraşdırılıb. Bundan əlavə, 715 nəfər müşahidəçi seçkinin gedişini canlı izləyib.

Daha sonra öyrənirik ki, 938 nəfər ilk dəfə səs verəcək.

Axşam Hüseyn Fərəcovla yenidən əlaqə saxladım. Cavabı qısa oldu: Seçicilərin 35,14 faizi seçkidə iştirak edib.

Zaqatala

Həlimə Sultanovanı Zaqatalada, demək olar ki, tanımayan yoxdur. 83 yaşı var. Düz 54 il balalarımızın təlim-tərbiyəsi ilə məşğul olub. Tarix fənnindən onlara dərs deyib. 80 illik yubileyində mən də iştirak etmişəm. Yaxından-uzaqdan xeyli şagirdi gəlmişdi. O qədər səmimi sözlər söylədilər ki, bir müəllim övladı olaraq, mən də kövrəldim...

Dünən Həlimə xanımı seçicilər arasında görəndə həmin unudulmaz günü xatırladım. Dedi: "Oğul, hələ indiyədək elə bir seçki olmayıb ki, gedib səs verməyim. Bu gün də böyük həvəslə gəldim. İstədiyim namizədlərə səs verdim".

111 saylı Zaqatala--Balakən seçki dairəsinin sədri Söhrab İsmayılovla söhbət zamanı bildirdi ki, bu gün 44 məntəqədə 46 min 665 nəfər seçici səs verməlidir. Seçkilərin gedişini 489 nəfər müşahidəçi izləyir. Gedib soruşa bilərsiniz. Hələlik heç bir qanun pozuntusu qeydə alınmayıb, hər şey açıq – aşkar, şəffafdır. 447 namizəd bələdiyyə üzvü seçilmək uğrunda mübarizə aparır.

Axşam Söhrab İsmayılov zəng vurub bildirdi ki, seçicilərin 32.17 faizi səs verib.

Şəki

114 saylı Şəki kənd birinci seçki dairəsinin ərazisində 45 məntəqə var. 18 bələdiyyəyə seçkilər keçirilir. 7 məntəqədə veb-kamera quraşdırılıb. Ümumilikdə, seçkinin gedişini 457 nəfər izləyib. 769 nəfərin isə sevinməyinə dəyər. Onlardan birinin – Qumru Əhmədovun 18 yaşı məhz seçki günü tamam oldu. "Sevinirəm, -- deyir. Ona görə ki, bu gün ilk dəfə səs verirəm". Biləcik kəndində yerləşən 14 saylı məntəqədə ilk dəfə əlinə bülleten alan bu balamızın özünü xoşbəxt hiss etdiyini gözlərindən oxuyuram.

Baş Göynük kəndindəki 18 saylı məntəqənin iki seçicisinin yaşı yüzü keçib. Zərnişan Bəşirova 1918, Zöhrə Səlifova 1919-cu ildə anadan olub. Uzun illər kolxozda işləyiblər. Tütünçü olublar. "Bəlkə onlar haqqında ayrıca bir yazı yazasınız?" -- Dairə seçki komissiyasının sədri Məharət Məmmədovun sözləri yerinə düşür. "Gözəl təklifdir, – deyirəm. – Mütləq yazaram".

Günün sonunda öyrənirəm ki, 113 saylı Şəki şəhər seçki dairəsində seçicilərin 29.52 faizi, 114 saylı Şəki kənd birinci seçki dairəsində 29.18 faizi, 115 saylı Şəki kənd ikinci seçki dairəsində 28.95 faizi iştirak edib, istədikləri namizədlərə səs verib.

Qax

112 saylı Qax seçki dairəsinin sədri Abdulkərim Əliyevə telefon açanda ilk soruşduğum Zaryət nənə oldu və aldığım ilk cavabdan da tutuldum. "Dünyasını dəyişib, – dedi, Abdulkərim müəllim.

Zaryət nənə ilə ötən parlament seçkilərində tanış olmuşdum. Yaşı yüzü keçsə də maraqlı xatirələri var idi.. Ruhu şad olsun.

Həmişə olduğu kimi, bu dəfə də qaxlılar məntəqələrə həvəslə gəlib, yerli idarəetmə orqanına seçkilərdə iştirak ediblər. 58 məntəqənin səkkizində veb -- kamera quraşdırılıb. Günorta dairənin sədri ilə yenidən əlaqə saxladım. "Artıq seçicilərin yarıdan çoxu səs vermədə iştirak edib", – dedi.

Sonda bunları öyrəndik: 47 min 734 nəfərdən 13 min 726 nəfəri məntəqələrə gəlib, səs verib .

Qəbələ

116 saylı Qəbələ seçki dairəsində 54 məntəqədə 190 yer uğrunda 646 nəfər namizəd mübarizə aparıb. Müşahidəçilərlə görüşdük. Hamısı seçkilərin demokratik, şəffaf keçirilməsindən danışdı, pozuntu olmadığını qeyd etdi. 44 min 170 seçicini birləşdirən dairədə 818 nəfər ilk dəfə səs verib. Ən yaşlı seçicinin adını yazım, siz də tanıyın. Qiyafət Şükürova 1915-ci ildə anadan olub. Rayonun Bayramkoxalı kəndində yaşayır. Səsvermə qutusunu evinə aparıblar. Nəvə-nəticələrinin əhatəsində səs verib. 117 saylı Oğuz-Qəbələ seçki dairəsində isə 7 məntəqədə veb- kamera quraşdırılıb, 47 min 107 nəfər seçici var. 222 yerə 769 nəfər namizədliyini verib. Onlar 61 məntəqədə mübarizə aparıblar. "Namizədlərin sayı seçkinin nə qədər demokratik, azad olmasından xəbər verir", – deyə dairə seçki komissiyasının sədri Rəsul Səfərov bildirdi.

Günün sonunda 116 saylı Qəbələ seçki dairəsinin sədri Ramiz Əsədov bildirdi ki, seçkilərdə seçicilərin 34,39 faizi iştirak edib. 117 saylı Oğuz – Qəbələ seçki dairəsində isə seçkilərə 15441 nəfər seçici gəlib.

Balakən

Balakəndə də seçki qaydasında keçib. Belə ki, 486 namizəd 14 bələdiyyəyə üzv seçilmək üçün mübarizəyə qoşulub.

109 saylı Balakən seçki dairəsinin sədri Vahid Əliyev bildirdi ki, 8 məntəqədə veb-kamera quraşdırılıb. Bundan əlavə, 418 nəfər müşahidəçi qeydiyyatdan keçib. 1080 nəfər isə bu gün ilk dəfə məntəqələrə gəlib səsvermə hüququndan istifadə edəcək.

Günün sonunda nəticə belədir. 43 min 775 nəfər seçicidən 14200 nəfəri yerli özünü idarəetmə orqanına seçkidə iştirak edib.

Mingəçevir

Mingəçevirdə seçkinin şəffaf və demokratik keçməsi üçün hər cür şərait yaradılıb. Bunu söhbət etdiyimiz hər müşahidəçilər də dedilər. Bildirdilər ki, səsvermə prosesinə də müdaxilə yoxdur, seçiciyə hər hansı təsir göstərmək də. 30 məntəqənin 12-də veb-kamera quraşdırılıb. Namizədliyini vermiş 60 nəfərdən 19-u bələdiyyə üzvü seçilmişdir.

47 saylı Mingəçevir seçki dairəsindən axşam aldığımız məlumat belə oldu. Seçicilərin 25,12 faizi səsvermədə istədikləri namizədə səs veriblər.

Kürdəmir

57 saylı Kürdəmir dairə seçki komissiyasının sədri Əbülfət Mikayılov bildirdi ki, 18 bələdiyyə üzrə 478 nəfər mübarizə aparır. 41 məntəqə üzrə 174 nəfər bələdiyyə üzvü seçilməlidir. Seçkini canlı izləmək üçün 11 məntəqədə veb-kamera quraşdırılıb.

236 nəfər bu gün ilk dəfə səs verib. Yaşlı insanlar, əlillər də diqqətdən kənarda qalmayıb. Onların yaşadıqları mənzillərə səsvermə qutuları aparılıb.

1919-cu ildə anadan olmuş Silyan kənd sakini Gülxara İslamova, Qarasuda yaşayan Güləsər Qurbanova, 117 yaşlı Ballı Qafarova evlərində səs veriblər.

Aldığımız son məlumat: 42 min 450 nəfər seçicidən 14249 nəfəri seçkilərdə iştirak edib.

İsmayıllı

86 saylı İsmayıllı dairə seçki komissiyası ilə əlaqə saxlayanda məlum oldu ki, 794 nəfər müşahidəçinin izlədiyi seçki şəffaf keçirilir. Heç bir qanun pozuntusu qeydə alınmayıb. Müşahidəçilər bildirdilər ki, seçki tam təlimata uyğun aparılır.

Biz də həmin günü bir neçə məntəqədə olduq. Seçkinin gedişini izlədik. Ən maraqlısı isə 102 yaşlı Gülpəri Orucovanın dediyi sözlər oldu: "Oğul, bu günlərin qədrini bilin".

Həmin gün dairədən aldığımız məlumat belə oldu: Seçicilərin 32.92 faizi səsvermədə iştirak edib.

87 saylı Ağsu – İsmayıllı seçki dairəsinin seçiciləri də fəal olublar. Belə ki, 13541 nəfər məntəqələrə gəlib, istədikləri namizədə səs verib.

Əli NƏCƏFXANLI,
İlqar HƏSƏNOV,
"Xalq qəzeti"